Xuraman KƏRİMOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
E-mail: xuramankarimova@anas.az
ORCID ID: 0009-0004-7291-0828
https://doi.org/10.59849/2309-7949.2026.2.23

"KİTABİ-DƏDƏ QORQUD"DA QADIN VƏ KİŞİ XARAKTERLƏRİN MÜQAYİSƏSİ

Açar sözlər: "Kitabi-Dədə Qorqud", qadın və kişi obrazları, emosional davranış, müqayisəli təhlil

АННОТАЦИЯ
СОПОСТАВЛЕНИЕ ЖЕНСКИХ И МУЖСКИХ ХАРАКТЕРОВ В "КИТАБИ-ДЕДЕ ГОРГУД"

При сопоставлении женских и мужских характеров в эпосе "Китаби-Деде Горгуд" внимание привлекают не только особенности их поведения, но и своеобразие мышления, эмоциональных реакций, принятия решений и внутреннего мира. Хотя женские и мужские персонажи эпоса являются представителями одной и той же социокультурной среды, их психологические портреты характеризуются различными особенностями. В психологии мужских образов на первый план, как правило, выходят такие качества, как мужество, честь, героизм, стремление к власти и защита семьи. На происходящие события они зачастую реагируют открыто и непосредственно. В их поведении значительное место занимают стремление к борьбе и чувство самоутверждения. Женские персонажи, в свою очередь, чаще воспринимают происходящее с эмоциональной точки зрения. Они не только активно воздействуют на развитие событий, но и принимают решения, а в определённых ситуациях вступают в борьбу наравне с мужчинами. Для женских образов особенно характерны эмоциональный интеллект, преданность, привязанность к семье, наблюдательность, дальновидность и способность адаптировать своё поведение к конкретной ситуации.

В статье основные женские и мужские характеры "Китаби-Деде Горгуд" рассматриваются в сравнительном аспекте. Анализируются особенности их эмоционального поведения в различных ситуациях, а также способы восприятия и оценки происходящих событий.

Ключевые слова: "Китаби-Деде Горгуд", женские и мужские образы, эмоциональное поведение, сравнительный анализ.

ABSTRACT
A COMPARİSON OF FEMALE AND MALE CHARACTERS İN "KİTABİ-DEDE KORKUT"

When comparing female and male characters in "Kitabi-Dede Korkut", one's attention is drawn not only to their behaviors but also to their mindsets, emotional reactions, decision-making traits, and internal motivations. Although the male and female heroes in the epic belong to the same socio-cultural environment, their psychological profiles are characterized by distinct features. The psychology of the male characters is defined primarily by valor, honor, heroism, authority, and the defense of the family; they often react to events openly and directly, with a sense of struggle and self-assertion playing a significant role in their behavior. In contrast, the female characters approach events from a more emotional perspective. They are figures who

influence the course of events, make decisions, and-in certain situations-fight alongside the men. Traits such as emotional intelligence, loyalty, devotion to family, keen observation, foresight, and the ability to adapt one's behavior to the situation are more pronounced in the female characters. The article presents a comparative analysis of the key female and male characters in "Kitabi-Dede Korkut" from various perspectives, examining their emotional behavior and approaches to events in different situations.

Keywords: "Kitabi-Dede Korkut", female and male characters, emotional behavior, comparison.

Giriş. "Kitabi-Dədə Qorqud" dastanlarında qadın və kişi obrazlarının psixoloji portreti gender bərabərliyi, qarşılıqlı hörmət və sosial rolların harmoniyası üzərində qurulmuşdur. Bu obrazlar tipik feodal-şərq patriarxal təfəkküründən fərqli olaraq, özünəməxsus psixoloji keyfiyyətlərə və daxili dinamikaya malikdirlər. Müqayisə zamanı onların davranışları ilə yanaşı, həm də düşüncə tərzi, emosional reaksiyaları, qərarvermə xüsusiyyətləri və daxili yaşantıları diqqət çəkir. Dastanda qadın və kişi obrazları eyni ictimai-mədəni mühitin nümayəndələri olsalar da, onların psixoloji portretləri müxtəlif xüsusiyyətlərlə səciyyələnir. Kişi obrazlarının psixologiyasında əsasən igidlik, şərəf, qəhrəmanlıq, hakimiyyət və ailənin müdafiəsi ön plana çıxır. Onlar hadisələrə çox vaxt açıq və birbaşa reaksiya verirlər. Bu obrazların davranışında mübarizə və özünütəsdiq hissi mühüm yer tutur. Qadın obrazları isə hadisələrə daha çox emosional və psixoloji baxımdan yanaşırlar. Onlar müdafiəyə möhtac və kölgədə qalan tərəf deyil, əksinə, hadisələrin gedişinə təsir göstərən, qərar qəbul edən və müəyyən vəziyyətlərdə kişilərlə bərabər mübarizə aparan xarakterlərdir. Qadınlarda emosional zəka, sədaqət, ailə bağlılığı, müşahidəçilik, uzaqgörənlik və situasiyaya uyğun davranmaq bacarığı daha qabarıq şəkildə nəzərə çarpır.

Dastanda kişi obrazlarının ümumi xarakteristikası.

"Kitabi-Dədə Qorqud" dastanında kişi obrazlarının əsas xüsusiyyəti olan igidlik və döyüşkənlik Qazan xan, Beyrək, Basat, Buğac, Uruz kimi qəhrəmanların simasında aşkar şəkildə görünür. Onlar təhlükə qarşısında geri çəkilmir, düşmənlə axıradək mübarizə aparırlar. Qəhrəmanın nüfuzu onun fiziki gücü ilə yanaşı, həm də cəsarəti və əməlləri ilə müəyyənləşir.

Dastanda kişi qəhrəmanın vətən və el qarşısında məsuliyyətli davranışı elin mənafeyini şəxsi mənafeyindən üstün tutduğunu göstərir. Qəhrəmanlıq və döyüşkənlik, vətən və el təəssübkeşliyi onları birləşdirən ümumi sosial, mənəvi və hərbi prinsiplərdir. Oğuz kişisi üçün elin təhlükəsizliyi, torpağın qorunması və tayfanın birliyi onun əsas vəzifələrindəndir.

Oğuz elinin kişisi idarəetmə qabiliyyətinə, ağsaqqallıq və liderlik nüfuzuna malikdir. Məsələn, Bayındır xan, Dirsə xan, Salur Qazan kimi obrazlar elin başçısı kimi həm möhkəm iradə, həm də ədalətli idarəçilik qabiliyyəti nümayiş etdirirlər. Onlar yalnız döyüşçü deyil, eyni zamanda təhlükəli məqamlarda məsuliyyət daşıyır, elin taleyi ilə bağlı qərarlar verirlər.

Salur Qazan, Bamsı Beyrək, Bəkil və digər kişi obrazlarının müxtəlif situasiyalarda psixoloji yanaşmalarının ümumi mənzərəsinə nəzər saldıqda bir çox xüsusiyyətlər müəyyənləşir. Onlar cəsarətlidir və açıq döyüş və fiziki mübarizəyə üstünlük verirlər, riskə hazırdırlar, qərarvermə məqamında qəti və çevikdirlər.

Emosional davranış zamanı hisslərini daha açıq ifadə edirlər. Mübarizə strategiyasında açıq qarşıdurmanı seçirlər. İctimai-siyasi və hərbi güc onların sosial mövqelərini bəlli edir. Xarici təhdidlər zamanı hisslərin axarına düşməyə, affekt halında bəzən tələsik qərarlar verməyə meyillidirlər. Şərəf və namus anlayışını daha çox fiziki güc, döyüş meydanındakı qalibiyyət və el-oba qarşısındakı statusla ölçürlər. Fərdi qürur və cəngavərlik qaydalarına uyğun hərəkət edirlər. Bəzən riskləri düzgün qiymətləndirmirlər. Cəmiyyətin liderləridirlər; lakin çətinliyə düşəndə, dar məqamda, daxili tərəddüdlərdə qadının ağlına ehtiyac duyurlar.

Dastanda kişi obrazlarının ailəsi ilə sıx bağlılığı təsvir edilir. Onlarda qadına və ailəyə hörmət hissi çox qabarıqdır. Anaya, həyat yoldaşına dərin ehtiram bəsləyir, onların rəyini nəzərə alırlar. Ailənin sədaqətli keşikçisidirlər. "*Dədə Qorqud"da da ailə bağlarına böyük əhəmiyyət verildiyi görünür. Adətən bir dəfə nikaha girirlər. Ailədən kənar sevgi münasibətlərinə rast gəlinmir. Bəylər öz həyat yoldaşlarına qarşı hörmətlə davranır, onların duyğularına əhəmiyyət verirlər*" (Yardımcı, *2007*: 54). Bu sadalananlar, demək olar ki, dastanın bütün kişi qəhrəmanlarına xas xüsusiyyətlərdir.

Ata-oğul münasibətləri xüsusilə diqqət çəkir. Oğuz bəylərinin münasibətlərində ailə, nəsil və davamlılıq ideyası əks olunur. Dastanda ata obrazı yalnız ailənin böyüyü deyil, həm də tərbiyəçi və mənəvi rəhbərdir. "*Ata-oğul münasibətləri ailədaxili münasibət müstəvisindən daha genişdir, bu münasibətlər ümumilikdə oğuz toplumuna xarakterik göstəricilərdən biri kimi əhəmiyyətli məzmun daşıyır. Oğuz igidləri ata sözündən heç vaxt çıxmazdılar. Atanın sözü qanun sayılır, ata sözünü dinləməyən oğul övladlıqdan çıxarılardı*" (Səfərova, 2021: 55). "*Ol zamanda oğul ata sözünü iki eləməzdi. İki eyləsə, ol oğlanı qəbul eləməzlərdi*" (KDQ: 1988). Qazan xanın Uruza münasibətində oğulun mənəvi yetkinliyi, igidliyə hazırlanması və ata-oğul bağlarının möhkəmliyi göstərilir.

Oğuz kişisi təkcə yenilməz döyüşçü deyil, onun emosional anlarının da şahidi oluruq. Qazan xanın oğlu Uruz üçün çəkdiyi iztirablardan onu övlad acısı çəkən, kövrələn, duyğusal insan olduğunu görürük. Dostluqda, yoldaşlıqda sədaqətlidirlər. Bir igid dara düşəndə digər Oğuz bəylərinin dərhal köməyə çatması onların həyat prinsiplərindəndir.

Kişi qəhrəman üçün ad, şərəf, namus və söz çox böyük əhəmiyyət daşıyır. Qəhrəmanın öz adına layiq davranması oğuz cəmiyyətində onun sosial mövqeyini müəyyən edir. Kişi üçün şərəf və igidlik yalnız şəxsi keyfiyyət deyil, həm də onun cəmiyyətdəki mövqeyini müəyyənləşdirən mənəvi dəyərdir.

Oğuz igidləri sözlərinə sədaqətli və dürüstdürlər. Kişi obrazının etibarlılığı onun verdiyi sözün arxasında dayanması, əhdə sadiq olması mənəvi dəyər göstəricisidir. Onlar verdiyi sözdən dönməyən, hiyləyə əl atmayan, açıq döyüşü üstün tutan xarakterə malikdirlər. Beyrək və Banıçiçək münasibətində kişi obrazının sevgiyə və sözünə sadiqliyi ön plana çıxır. "*Beyrəyin öz eşqinə sədaqəti, bütün çətinlikləri, maneələri aşaraq sevgilisinə çatmaq üçün göstərdiyi fədakarlıqlar Qalın Oğuz eli cavanlarının yüksək əxlaqi-mənəvi keyfiyyətlərinin əyani bir nümunəsidir*" (Həbibbəyli, 2020: 164). Beyrəyin simasında sədaqət, namus, sözə bağlılıq və sevgiyə hörmət qəhrəmanlıq xüsusiyyətləri ilə birləşir.

Kişi obrazlarında ad qazanmaq ənənəsi var. Onlar göstərdiyi şücaətə, igidliyə görə ad alırdı.

"Kitabi-Dədə Qorqud"da ideal kişi üçün güclü döyüşçü xüsusiyyəti ilə yanaşı, onun ağlı, uzaqgörənliyi, sədaqəti, təmkini və mənəvi möhkəmliyi də vacibdir. Dədə Qorqud obrazı bu baxımdan xüsusilə fərqlənir: o, fiziki döyüşdən daha çox, ağlı, sözünün gücü və müdrikliyi ilə seçilən, problemləri həll edən, xeyir-dua verən, məsləhətçi və yol göstərən obrazdır.

Dastanda hər kişi obrazının özünəməxsus xüsusiyyətləri var və onlar müəyyən fərqliliklərlə təqdim edilirlər. Qazan xan daha çox rəhbər və sərkərdə, Beyrək aşiq-qəhrəman, Basat xalqın xilaskarı, Buğac gənc qəhrəman, Uruz yetkin igid gənc, Dədə Qorqud isə müdrik ağsaqqal tipini təmsil edir.

"Kitabi-Dədə Qorqud"da kişi obrazının əsas xüsusiyyətlərini belə ümumiləşdirmək olar: o, cəsur, vətənpərvər, sözünün sahibi, ailəsinə bağlı, namus və şərəf anlayışlarını qoruyan, el qarşısında məsuliyyət daşıyan və zərurət olduqda özünü xalqının müdafiəsinə həsr edən şəxsdir. Onlar fiziki gücə malik döyüşçülər olmaqla yanaşı, həm də ağıllı və möhkəm mənəviyyatlı, duyğusaldırlar, məsuliyyətli ata və sədaqətli ərdirlər; yüksək idarəetmə qabiliyyətinə malikdirlər.

Qadın obrazlarının ümumi xarakteristikası

Dastanda qadın obrazları ailədə mühüm rola malik və cəmiyyətin əsas sütunlarından biri kimi təsvir olunur. Oğuz cəmiyyətində qadın həm evin dayağı, həm də lazım gəldikdə döyüşçüdür.

Dastanda müxtəlif qadın tipləri iştirak edir. **"**Müqəddimə"də Dədə Qorqud qadınları dörd tipə ayırır və onları belə səciyyələndirir:

1. Evin dayağı olan, ailənin qeydinə qalan, qonaqpərvər və ləyaqətli qadınlar;
2. Hər şeydən narazı olan, dedi-qodu edən qadınlar;
3. Təmizkarlıqdan və qaydadan uzaq, baxımsız qadınlar;
4. Söz dinləməyən, dikbaş qadınlar (KDQ, 1988: 6-7).

Dastandakı qəhrəman qadınlar məhz birincinin – "evin dayağı" tipinin parlaq nümayəndələridir. Bu qadın obrazlarının fərdi keyfiyyətlərinə nəzər salaq:

Burla xatun Qazan xanın həyat yoldaşıdır. Onun analıq və namus hissi dastan boyu sınağa çəkilir. Düşmən Uruzun ətini kəsib anasına yedirtmək istədikdə, Burla xatun oğlunun "Mənim ətimdən ye, təki bəyimin namusu tapdanmasın" nəsihətini qəbul edir. Bu məqamda analıq sevgisi ilə elin şərəfi eyniləşir. Burla xatun həlledici anlarda hadisələrin gedişinə ciddi şəkildə təsir etmək qüdrətindədir. Uruz əsir düşəndə Burla xatun atlanıb qırx incəbelli qızla Salur Qazanın köməyinə tələsir. O, övladını təkcə dualarla yox, qılınc gücü ilə xilas edən cəsur ana obrazıdır. Burla xatunun xarakterində analıq, qadınlıq duyğuları və iradə bir-biri ilə çulğaşır. O, təhlükə qarşısında yalnız özünü deyil, ailəsinin və oğlunun taleyini düşünür.

Banıçiçək mərdlik və bərabərlik simvoludur. O, Bamsı Beyrəyin adaxlısıdır. Gözəlliyi ilə yanaşı, fiziki gücü və cəsarəti ilə də seçilir, döyüşçü qadındır. Beyrəklə evlənməzdən əvvəl onunla ox atmaqda, güləşməkdə və at çapmaqda yarışır. Banıçiçəyin psixoloji portretində qürur, özünəinam və iradə xüsusi yer tutur. O, Bamsı Beyrəklə münasibətlərində sadəcə gözləyən tərəf deyil, öz mövqeyi və tələbləri olan fəal obrazdır. Onun at minməsi, ox atması və igidlik göstərməsi qadın obrazının fiziki cəsarətlə yanaşı, psixoloji müstəqilliyini də nümayiş etdirir.

Selcan xatun qəhrəman və xilaskardır. Qanturalının sevgilisi və həyat yoldaşıdır. Cəsur döyüşçü xarakterinə malikdir. Savaş texnikasını mükəmməl bilir. Qanturalı düşmən mühasirəsinə düşəndə tərəddüd etmədən ata minib onu ölümdən xilas edir. Selcan xatun daha dinamik və mübariz qadın xarakteridir. Onun davranışlarında cəsarət, sədaqət və təhlükə qarşısında soyuqqanlılıq birləşir. Bu baxımdan Selcan xatun bəzi kişi qəhrəmanlarının psixoloji xüsusiyyətlərini daşıyır.

Dəli Domrulun həyat yoldaşı fədakardır. Əzrail Domrulun canını almaq istəyəndə ata-anası can vermədiyi halda, o, öz canını həyat yoldaşı üçün fəda etməyə hazır olan böyük məhəbbət sahibidir.

Qadın obrazlarının bu fərqli xüsusiyyətləri ilə yanaşı, onları birləşdirən ümumi cəhətləri də var. Qadın obrazları hadisələrə daha çox emosional baxımdan yanaşırlar. "*Oğuz ailəsində ər-arvad münasibəti də önəmli yer tutan, mühüm məsələlərdən biridir. Bu cür münasibətlərdə qadın qəhrəmanların göstərdiyi fədakarlıq ön planda verilməkdədir. Bununla yanaşı, dastanın müxtəlif boylarında qadınların ərlərinə hörmətlə yanaşması, onlara böyük sevgi və etibar nümayiş etdirməsini görürük* (Quliyeva, 2022: 22). Onlar ailədə bərabərhüquqlu və müstəqildirlər, qərarvermə prosesində ərləri ilə eyni hüquqa malikdirlər. Namusu hər şeydən üstün tuturlar. Əsir düşsələr belə, Oğuz mənsubiyyətini və ləyaqətini qoruyurlar.

Dastanda "Ana haqqı – Tanrı haqqı" prinsipi əsas götürülür. Ana südü və ana xeyir-duası qəhrəmanların güc mənbəyidir.

Qadın obrazlarından Burla xatun, Banıçiçək, Selcan xatun və digər qadınlar həm fiziki, həm də mənəvi mübarizə aparmaqda cəsarətlidirlər; onlar üçün şərəf hissi ailə, sədaqət və mənəvi möhkəmliklə bağlıdır; qərarvermə anında daha çox müşahidə və vəziyyətin qiymətləndirilməsinə əsaslanırlar; emosional davranış zamanı çox vaxt hisslərini gizlədirlər; ailə münasibətində ailəni qorumaq və emosional bağlılığı yaşatmaq əsas məqsədləridir; mübarizədə açıq və dolayı strategiyaların birləşməsindən istifadə edirlər; ailə daxilində və mənəvi mühitdə təsir gücü ilə sosial mövqelərini ortaya qoyurlar; ağır təhlükə qarşısında yüksək təmkin, soyuqqanlılıq və strateji düşüncə nümayiş etdirirlər.

Şərəf anlayışı mənəvi dözümlülük, sədaqət və ailə-tayfa bütövlüyünün qorunması ilə ideallaşır. "*Onlar ailə birliyinin qoruyucusu, mənəvi dəyərlərin daşıyıcısı, ictimai harmoniyanın təminatçısı kimi çıxış edirlər. Bu isə qədim türk cəmiyyətində gender balansının müəyyən səviyyədə qorunduğunu göstərən mühüm faktordur*" (Kərimova, 2026: 134). Dastanda bütün qadın qəhrəmanların şərəf və ləyaqətin cəsur qoruyucusu olduqlarını görürük. Məntiqli və məqsədyönlüdürlər. Gizli liderlik və məsləhətçi funksiyası daşıyırlar. Lazım gəldikdə – əri və ya eli darda qaldıqda aşkar şəkildə kişilərdən geri qalmayan hərbi-mənəvi liderlik göstərirlər.

Emosional paralellər və fərqlər

Kitabi-Dədə Qorqud" dastanlarında Salur Qazan və Burla xatun Oğuz cəmiyyətinin siyasi, mənəvi zirvəsini təmsil edirlər. Onların psixoloji portretləri təkcə dastan cəngavərliyi ilə məhdudlaşmır; hər iki obraz dərin daxili münaqişələr, ağır mənəvi sınaqlar və şəxsi faciələr fonunda açılan zəngin psixoloji dinamikaya malikdir.

Qazan xan. Qazan xanın daxili münaqişəsi, əsasən, ovda olduğu zaman evinin yağmalanması və ailəsinin əsir düşməsi ilə başlayır. Onun "Oğuz elinin daya-

ğı" statusu ilə hazırkı vəziyyətdə evini, ailəsini qoruya bilməmək reallığı toqquşur. Yurdunun talan olduğunu görəndə o, affekt halına düşür, ağacı, suyu, qurdu sorğu-sual edir. Burada hökmdar qüruru ilə çarəsiz insan psixologiyası üz-üzə gəlir. Uruzun düşmənə əsir düşməsi və Qazanın onu xilas etmək üçün yaşadıqları, bir ata kimi onun vicdan əzabını pik nöqtəyə çatdırır.

Dastanda Qazan xanla bağlı səhnələr onun psixoloji xüsusiyyətlərini tam şəkildə aydınlaşdırır. Gərgin məqamda o, hadisələrə qərəzli reaksiya verir. Dərhal hərəkətə keçməyə, qisas almağa, fiziki güclə problemi həll etməyə meyllidir. Hisslərini tez büruzə verir. Böhran anında qəzəb və emosionallıq səbəbindən bəzən düşünülməmiş addımlar atır (məsələn, təkbaşına düşmən üzərinə gedir). Ata olaraq övladı Uruza bir döyüşçü, xələf və qəhrəman kimi baxır; onu igid kimi yetişdirməyə çalışır.

Burla xatun. Burla xatun ailə və namus keşikçisidir. O, Qazan xanın ömürgün yoldaşı, Oğuz qadınlarının başçısıdır. Sədaqətli, məğrur və fədakardır. Oğlu Uruz əsir düşəndə onun ətindən yemək məcburiyyətində qalmamaq üçün fədakarlıq edir, at minib döyüş meydanına atılır. "*Qazan xanın evinin yağmalanması boyu"nda Burla xatunun öz oğlu Uruzla mükaliməsi bir qadın olaraq onun hansı normaların daşıyıcısı olmasını aydın göstərir. Bu boyda Oğuz elinin qadınla bağlı düşüncələrinin şahidi oluruq. Uruzun dilindən diqqətə çatdırılan sözlərdən aydın olur ki, Oğuzda qadının ən böyük dəyəri onun ərinə sədaqəti ilə ölçülür"* (Quliyeva, 2022: 20).

Düşmənlər Qazan xandan qisas almaq üçün Burla xatunu əsir götürür. Həmin məqamda – əsirlikdə qadının davranış taktikası bu obrazın xarakterini açıq-aydın bəyan edir: "*Burla xatunun kafirlərdən gizlənməsi bir neçə epik planda özünü göstərir: 1. Burla xatun kimliyini gizlədərək kafirlərdən əsl mövqeyini – Qazan xanın xanımı, Oğuz xatunlarının başçısı olduğunu gizlədir və belə davranması ona bir qədər hərəkət azadlığı yaradır. 2. O, üzdə kafirlərin tələblərinə cavab verirmiş kimi görünsə də, əslində niyyətini gizlədir və oğlunu xilas etmək üçün fürsət axtarır. Bu, ikili davranış modelidir və bunu "taktiki maskalanma" da adlandırmaq olar. 3. Burla xatun fiziki gizlənmə planı qurur. O, kafirlərin gözü önündə qırx incəbelli qızın arasında gizlənir, onların diqqətini yayındıra bilir. Bu gizlilik onun müqavimət planının baş tutmasına şərait yaradır. 4. Ən dərin planda isə Burla xatun öz daxili dünyasını kafirlərdən gizlədir, namusunu qoruyur. Bununla da həmin epizodda zahirən əsir, daxilən isə hər an qürurlu bir qadın obrazı yaradır* (Kərimova, 2026: 131). Bu məqamda Burla xatunun verdiyi qərarların nə qədər doğru-düzgün olduğunun bir daha şahidi oluruq.

Dastanda Burla xatun Oğuz cəmiyyətində xarakter formalaşdıran, övladı sınaqlara hazırlayan və mənəvi-sosial cavabdehlik daşıyan bir institutdur.

Ailədə, övladla münasibətdə, düşmən qarşısında və s. davranışları Burla xatunun psixoloji xüsusiyyətlərini hər kəsə bəlli edir. Burla xatun gərgin məqamda ilk olaraq mənəvi dözümlülük göstərir, vəziyyəti analiz edir, daxili gücünü səfərbər edir. Hətta döyüş meydanında da təmkinini qoruya bilir. Qırx incəbelli qızla birlikdə Salur Qazanın köməyinə yetişəndə emosional yox, taktiki davranır. Ailənin, ərinin namusunun və Oğuz cəmiyyətinin mənəvi dəyərlərini qorumaq onun

şəxsiyyətinin göstəricisidir. Övladı Uruza həm ana şəfqəti ilə yanaşır, həm də elin gələcəyi kimi baxır.

Ana və atanın övlad faciəsi məqamında psixoloji yaşantıları dastanda qadın və kişi psixologiyasının müqayisəsinə ən parlaq nümunədir. Burla xatunun oğlu Uruz əsir düşərkən keçirdiyi daxili sarsıntı və göstərdiyi fədakarlıq onun psixoloji baxımdan necə sarsılmaz mənəviyyata malik olduğunu göstərir. Salur Qazan eyni vəziyyətdə daha çox qəzəb və intiqam hissi ilə hərəkət etdiyi halda, qadın mənəvi sınağın ağırlığını çəkir.

Salur Qazan və Burla xatun cütlüyü dastan boyu bir-birini psixoloji olaraq tamamlayır:

1. Qazan xan dara düşəndə Burla xatun ona dəstək olur. Qazan xan hansısa situasiyada ruhdan düşəndə və ya tələsik qərar verəndə Burla xatunun müdrikliyi və soyuqqanlılığı tarazlığı bərpa edir.
2. Qazan xan qürurlu, Burla xatun isə müdrikdir. Salur Qazan öz şərəfini qorumaq üçün canından keçməyə hazırdırsa, Burla xatun bu şərəfin mənəvi məzmununu qoruyur.
3. Qəhrəmanlıq məqamlarında onlar tərəf müqabili, müttəfiqdirlər. Burla xatun Qazanın arxasında duran sadəcə bir evdar qadını deyil, lazım gəldikdə qılınc qurşanaraq ərinin yanında döyüşən, onunla eyni psixoloji yükü bölüşən bərabərhüquqlu şəxsiyyətdir. "*Boyu uzun Burla xatun kafirin qara bayrağını qılıncladı, yerə saldı. Təkur basıldı, qalan düşmənlər qaçdı*" (KDQ, 1988: 72).

Folklorşünas alim Ramazan Qafarlı yazır: "*Heç bir xalqda analoqu olmayan bu abidə elə bir bədii əsərdir ki, onda türkün ilkin dünyagörüşündən başlamış orta çağların tarixi hadisələrinə qədər əksər sosial institutların izləri əks olunur, daha dəqiq desək, Qafqaz türklərinin milli xarakteri, psixologiyası, adət-ənənələri, dini-fəlsəfi baxışları, əxlaqı, dövlət quruculuğu, qəhrəmanlıq salnaməsi, ailə münasibətləri, vətənə, torpağa bağlılığı, qonşularla əlaqəsi, ritualları, məişəti, yaşayış tərzinin əksər atributları, müxtəlif təbəqələrə və yaş dövrlərinə məxsus insanların davranışı, şifahi və yazılı dilinin tarixi özünə yer tapır*" (Qafarlı, 2020: 4). Xalq həyatının, demək olar ki, bütün sahələrini əks etdirən bu əsər, həm də Oğuz cəmiyyətində insanların xarakterləri, mənəvi dünyası ilə bir tanışlıqdır. "Kitabi-Dədə Qorqud"da kişi və ya qadın xarakterlərinin əsas xüsusiyyətləri milli-mənəvi dəyərlərə sadiqlik, qarşılıqlı münasibətdə bir-birinə məsuliyyət və hörmətlə yanaşma əsas amil kimi diqqəti cəlb edir. Həm gündəlik ailə-məişət müstəvisində, həm də gərgin məqamlarda (döyüşdə, əsirlikdə və s.) onları birləşdirən səbəb bu qarşılıqlı dərin duyğulardır. Oğuz cəmiyyətinin formalaşmasında gender bərabərliyi və feminist yanaşma əsas həlledici güc olmuşdur. Bütün dastan boyu bunun onlarla bariz nümunələrinə rast gəlirik. Məhz buna görə də dastanda ailənin və cəmiyyətin aparıcı qüvvəsi olaraq həm qadın, həm də kişi eyni dərəcədə məsuliyyət daşıyır. "*Oğuz ailəsi ilə dövləti bir-birinə çox bağlıdır. Oğuz ailəsinə bir övlad, dövlətinə bir dəyərli şəxsiyyət gələndə toy-bayram kimi qarşılanır. Oğuzun ailəsində bir dəyərli şəxs dünyasını dəyişəndə böyük yasla, şivənlə yola salınardı. Ailə sevinci ilə dövlət təntənəsini, ailə kədəri ilə dövlət səviyyəli yası millət elliklə yaşayırdı*" (Hacıyev, 1999: 114). Əsər Oğuz eli ilə oğuz ailəsinin, hər bir oğuz fərdinin

vəhdət şəklində birləşdiyini, cəmiyyətlə dövlət arasında möhkəm bağların olduğunu göstərir.

Nəticə. "Kitabi-Dədə Qorqud"da qadın və kişi obrazları bir-birini tamamlayan iki psixoloji model kimi təqdim olunur. Dastanda kişi və qadın bir-birinə rəqib deyil, bir bütövün – tamın hissələridir. Kişinin gücü və cəsarəti, qadının ağlı, təmkini və mənəvi dəstəyi ilə birləşdikdə Oğuz cəmiyyətinin daxili sabitliyi təmin olunur. Kişi obrazlarının psixoloji gücü daha çox fiziki cəsarət, qəhrəmanlıq və şərəf anlayışları ilə ifadə olunursa, qadın obrazlarının gücü emosional zəka, sədaqət, iradə, uzaqgörənlik və psixoloji davamlılıqda üzə çıxır. Lakin dastanda bu sərhədlər tamamilə sərt deyil: Banıçiçək və Selcan xatun kimi qadınlar kişi qəhrəmanlarına xas igidlik göstərir, kişi obrazları isə sevgi, ata məhəbbəti, qorxu və kədər kimi güclü emosiyalar yaşayırlar. Bu baxımdan dastanda qadın və kişi psixologiyası qarşı-qarşıya qoyulmur, bir-birini tamamlayan mənəvi-psixoloji sistem kimi təqdim edilir.

Kişi və qadın obrazları arasında müəyyən psixoloji fərqlər də mövcuddur. Ən mühüm fərqlərdən biri onların mübarizə üsulunda görünür. Kişilər daha çox açıq fiziki mübarizəyə üstünlük verdikləri halda, qadınlar çox vaxt müşahidə, emosional təsir, gizlilik, çeviklik və situasiyanı düzgün qiymətləndirmə yolu ilə məqsədlərinə çatırlar. Bu xüsusiyyət qadın obrazlarının psixoloji cəhətdən daha mükəmməl təqdim olunduğunu göstərir. Oğuz igidlərinin qələbələrində, şərəf və ləyaqətlərinin qorunmasında oğuz qadınları aparıcı qüvvədir.

ƏDƏBİYYAT

1. Hacıyev, T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.
2. Həbibbəyli, İ. "Kitabi-Dədə Qorqud": yazılı epos və ya epopeya. Bakı: Elm, 2020, 280 s.
3. Kərimova, X. "Kitabi-Dədə Qorqud" dastanında qadınların gizlilik taktikası // Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD), 2026, 10 (1), s. 127-135.
4. Kitabi-Dədə Qorqud / Tərt. ed. F.Zeynalov, S.Əlizadə. Bakı: Yazıçı, 1988, 265 s.
5. Qafarlı, R. "Kitabi-Dədə Qorqud" oğuznaməsi: janr, genezis, struktur. "Dədə Qorqud". Elmi-ədəbi toplu, II (69). Bakı: 2020, s. 3-20.
6. Quliyeva, G. Oğuz elində qadının dəyəri. ("Kitabi-Dədə Qorqud" dastanı əsasında) // Qədim diyar. Beynəlxalq onlayn elmi jurnal. 2022 / Cild 4, Sayı 10, s. 18-24.
7. Səfərova, A. "Kitabi-Dədə Qorqud" dastanında oğuzların həyat tərzi və ailə münasibətləri. "Dədə Qorqud". Elmi-ədəbi toplu. I (72). Bakı: Elm və təhsil, 2021, s. 51-59.
8. Yardımcı, M. Türk destanlarında tipler ve motifler // Destanlar, Ankara: Ürün Yay, 2007, s. 50-69.